F. Köçərli adına Respublika Uşaq Kitabxanası

# Maarifçilik yolunun əbədi yolçusu
# Seyid Əzim Şirvani - 190



*Səni əhli-vəfa bilmişdim, ey gül, bivəfasanmış,*
*Bağışla, bilmədim biganələrlə aşinasanmış...*

**Bakı – 2025**

***(Veblioqrafiya)***

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025.**

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Ağayeva İranə**

**Ünvan:** **Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə:** **(+99412) 597-08-79, (+99412) 597-09-86**

**info@clb.az**

**ushaqkitabxanasi@gmail.com**

**childlibbaku@yahoo.com**

## Həyat və yaradıcılığı

XIX əsr Azərbaycan ədəbiyyatının inkişafına təkan verən, poeziyamıza xalqın səsi kimi daxil olan nadir sənətkarlardan biri də Seyid Əzim Şirvani olmuşdur. O, təkcə şair deyil, zamanın ədalətsizliyinə, cəhalətə və haqsızlığa qarşı çıxan bir maarif fədaisi, düşünən bir vicdan, xalqın dərdini dilə gətirən söz adamı idi.

Seyid Əzim Şirvani 1835-ci ildə Şamaxının elm, ədəbiyyat və sənət ocağı kimi tanınan zəngin mühitində dünyaya göz açmışdı. Erkən yaşlarından elmə, biliyə maraq göstərmiş, ərəb və fars dillərini mükəmməl öyrənmişdi. Klassik şərq ədəbiyyatını dərindən mənimsəyən Seyid Əzim, eyni zamanda xalq arasında baş verən haqsızlıqları müşahidə edərək qəlbində etiraz atəşi alovlandırırdı. O, sadəcə şeir yazmır, söz vasitəsilə ədalət istəyirdi. Seyid Əzim Şirvani klassik Azərbaycan poeziyasının Füzuli, Nəsimi, Vaqif və Zakir kimi ustadlarının izindən gedərək, poeziyada həm məhəbbət, həm də ictimai mübarizə mövzularına yer vermişdir. Onun qəzəlləri duyğusal, lirizmlə dolu olduğu halda, satirik şeirləri isə kəskin və düşündürücü idi.

Seyid Əzim Şirvaninin ən çox müraciət etdiyi janrlar arasında qəzəl, rubai və təcnis yer tuturdu. Şeirlərində bəzən aşiqanə hisslərə, bəzən də xalqın fəryadına səs verən bu sənətkarın qələmi heç vaxt susmamış, dövrünün vicdanı olmuşdur.

Şairin əsərləri içərisində öyüd, təmsil və didaktik mahiyyət daşıyan mənzum hekayələr vardır ki, bunların da müəyyən bir hissəsi öz ideyaları etibarilə onun maarifçi şeirləri ilə birləşir. Doğruçuluq, mərdlik, dostluq, yoldaşlıqda mətanət, çalışqanlıq, əzilənlərə kömək, insanlarla yaxşı rəftar və s. həmin öyüdlərin əsas məzmununu təşkil edir. Seyid Əzim Şirvaninin ictimai mahiyyət daşıyan satiraları onun ümumi yaradıcılığında müstəsna mövqe tuturdu. Onu öz dövrünün böyük realist şairi kimi tanıdan “Yerdəkilərin göyə şikayət etmələri”, “Dəli şeytan”, “Məkri-zənan”, “Bəlx qazisi və xarrat”, “Mücdəhidin təhsildən qayıtması”, “Elmsiz alim”, “Alim oğul ilə avam ata” və s. satiralarıdır.

Seyid Əzim yaşadığı dövrdə bir çox şairin ilham mənbəyi və mənəvi müəllimi olmuşdur. Firidun bəy Köçərli onu “Qafqaz şüərasının sərəmədi” adlandırmış və Azərbaycan ədəbiyyatında tutduğu mövqeyə xüsusi önəm vermişdir. O, Bakı, Şuşa, Gəncə, Qazax, Lənkəran, Təbriz, Ərdəbil, Dərbənd və Şəki bölgələrinin şairləri ilə sıx əlaqədə olmuş, təzkirələrində onların yaradıcılığından geniş bəhs etmişdir. Bakıda fəaliyyət göstərən “Məcməüş-şüəra” ədəbi məclisində tez-tez iştirak edən şair burada Əbdülxalıq Cənnətinin istedadına da yüksək qiymət vermişdir.

Seyid Əzim Şirvaninin Azərbaycan ədəbiyyatı tarixində görkəmli bir yeri olmuşdur. O, coşğun lirik əsərlərilə Füzuli ədəbi məktəbinin istedadlı nümayəndəsi, dövrün ictimai bəlaları əleyhinə çevrilən tənqidi şeirlərilə isə qüvvətli bir satirik kimi tanınmışdır. Öz zəngin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə qızıl səhifələr əlavə edən Seyid Əzim Şirvani 1888-ci il iyun ayının 1-də Şamaxıda vəfat etmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Seyid Əzim Şirvaninin 190 illik yubileyi münasibətilə şair haqqında çap məhsullarında olan materialların tammətnli siyahısını hazırlayaraq oxuculara təqdim edir.

## Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Sərəncam

2025-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli şair və böyük maarif xadimi Seyid Əzim Şirvaninin anadan olmasının 190 ili tamam olur.

Seyid Əzim Şirvani yaradıcılığı boyu həm Şərq poeziyasının çoxəsrlik ənənələrini yüksək sənətkarlıqla davam etdirmiş, həm də mühüm ictimai-siyasi dəyişikliklərin baş verdiyi bir şəraitdə Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Dəyərli poetik nümunələrdən ibarət parlaq lirikasında mənəvi gözəlliyi tərənnüm edən şair, eyni zamanda, realist satiralarında dövrün aktual məsələlərinə kəskin münasibət bildirmiş, didaktik əsərlərində humanist ideyaların təbliğinə xüsusi diqqət yetirmişdir. Seyid Əzim Şirvani cəmiyyətin sosial-mədəni tərəqqisi uğrunda qabaqcıl ziyalıların apardığı mübarizənin daim ön sıralarında dayanmışdır. Onun xalqa xidmət naminə öz maarifçi düşüncələrini gerçəkləşdirmək arzusu ilə ana dilində açdığı yeni üsullu məktəb Azərbaycan təhsili tarixində dərin iz qoymuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük söz ustası Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük Azərbaycan şairi Seyid Əzim Şirvaninin 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 aprel 2025-ci il

## Görkəmli şəxsiyyətlər Seyid Əzim Şirvani haqqında

Biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. İndiki ideyamız milli, tarixi ənənələrimiz, millətimizin keçdiyi tarixi yol, ulu babalarımızın yaratdığı ümumbəşəri dəyərlər əsasında - Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir. Əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyim şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdi.

**Heydər Əliyev**
*Ümummilli lider*

Axirül-əmir Hacı Seyid Əzim öz vətəni Şamaxı şəhərinə müraciət edib burada bir məktəb binası qoymuşdur ki, onda türk, fars və rus dilləri təlim olunurdu. Və lakin o vaxtlarda təlim-tərbiyə məsələsi çox çətin əmrlərdən birisi hesab olunurdu. Çünki üsuli-cədid üzrə uşaqlara oxumaq və yazmaq öyrətmək layiqincə müntəşir olmamışdı və təlim işlərinə mübaşir olan əşxasın üsuli-cədid nədən ibarət olduğundan xəbəri yoxdu və köhnə qaydadan bir müəllim dışqarı çıxsaydı və təlim üçün təzə və yüngül bir cığır açsaydı, camaat ona rəğbət göstərməyib, nifrətlərini çox namərbut və kobud əda və hərəkətlər ilə izhar qılardılar. Seyidin ümdə mətləbi və baş arzusu insaniyyət dərəcəsinə və bəşəriyyət mərtəbəsinə vasil olmaqdır. Bu xüsusda onun nəzəri və o qədər vəsi və genişdir ki, ona tək azərbaycan şairi demək dürüst deyil, bəlkə ol dürri-yeganə ümumi-insaniyyət şairidir.

**Firidun bəy Köçərli**
*ədəbiyyatşünas, alim*

Dünyada yaşayışları da bəxtləri kimi qaranlıq və küskün olan ədəbi simalardan, parlaq nasiyələrdən biri də heç şübhə yoxdur ki, Şirvanlı Seyid Əzimdir. Mövhumatın zülməti və xürafatın kəsafəti ilə kirlənmiş bir mühit qucağında parlayan bu zəka şöləsi, əsici küləyə qarşı qoyulan titrək bir şam həyatı yaşamış, həmişə zillət küləyindən şam alovu kimi titrəmişdir.

**Məhəmməd Hadi**
*şair*

S.Ə.Şirvani dini fəlsəfi təfəkkürlə yanaşı, xeyli dərəcədə dünyəvi fəlsəfi təfəkkürə meyil göstərmiş mütəfəkkir kimi Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixində özünəməxsus yer tuta bilmişdir. İslam-Şərq-Türk mədəniyyəti ilə Qərb-Xristian mədəniyyətinin hansı anlamda uzlaşa biləcəyini qismən doğru müəyyənləşdirə bilmişdir. Xüsusilə, onun dünyagörüşündə islam fəlsəfəsi, türk fəlsəfəsi bir bütünlük təşkil etməsinə, eyni zamanda sxolastik fəlsəfi təfəkkürdən çox uzaq duraraq yenilkçi-insani-dünyəvi xarakter daşımışdır. Məhz islam fəlsəfəsi və türk mədəniyyətinin dərkində əsasən rasional mövqe tutmasının nəticəsi idi ki, Şirvani də Qərb-Rus mədəniyyətinə olduqca həssas yanaşmışdır. Onun Qərb

mədəniyyətindən əsasən əxz elədiyi məsələ, reallıqları görüb dəyərləndirmək bacarığı və Avropa texnologiyasından səmərəli istifadə etmək idi. Hər halda Şirvani türk mədəniyyətinə və islam fəlsəfəsinə dərindən bələd olan bir mütəfəkkirimiz kimi, Qərb mədəniyyətinə aid dəyərlərin hansı anlamda müsəlman türk xalqlarının həyatında müsbət ya da mənfi rol oynaya biləcəyini əsasən, doğru müəyyənləşdirə bilmişdir.

**Faiq Ələkbərli**
*dosent, fəlsəfə üzrə fəlsəfə doktoru*

XIX əsrin ikinci yarısından sonra Azərbaycanda qüvvətlənən marifçilik hərəkatının görkəmli nümayəndələrindən biri kimi tanınan Seyid Əzim M.F.Axundovun başladığı işi poeziya sahəsində davam və inkişaf etdirmiş, maarifçi realisty şerin dəyərli nümunələrini yaratmaqla doğma ədəbiyyatımıza misilsiz xidmət göstərmişdir. Onun gözəlliyi və təmiz məhəbbəti tərənnüm edən parlaq lirikası hakim və varlı təbəqələrə, mürtəce rühanilərə, mədəni geriliyin müxtəlif təzahürlərinə qarşı çevrilmiş kəskin satiraları, vətənpərvərlik, xalqalar arasında dostluq, insana məhəbbət, xeyirxalqlıq, vəfa, sədaqət kimi bəşərli hissləri təbliğ edən öyüd və nəsihətləri, hikmətamiz hekayələri və təmsilləri Azərbaycan bədii təfəkkürünün tarixində orjinal bir mərhələ təşkil edir.

**Knyaz Aslan**
*dosent, şair, publisist, alim*

Əruz ritmləri Azəri qəlbinin lirik bir simfoniyasıdır. Seyidsiz çağdaş Qərb ilə Şərqi özündə ehtiva edən əsl milli azərbaycanlı siması təsəvvüredilməzdir.

**Aynur Fərəcova**
*tənqidçi-şairə*

## Seyid Əzim Şirvaninin xatirəsinin əbədiləşdirilməsi



Şamaxıda Seyid Əzim Şirvani adına park



Seyid Əzim Şirvaninin qəbirüstü abidəsi



Seyid Əzim Şirvani adına Şamaxı Tarix-Diyarşünaslıq Muzeyi



Seyid Əzim Şirvaninin büstü




Seyid Əzim Şirvaninin barelyefi

## Kitabları




Aləmdə səsim var mənim. Seçilmiş əsərləri / S.Ə.Şirvani. - Bakı : Kitab klubu, 2015. - 472 s. : rəngli şək. ; 21 sm. - (Azərbaycan klassikləri).

Kitaba Seyid Əzim Şirvani yaradıcılığının bir hissəsi: qəzəllər, rübailər, qoşabeytlər, təkbeytlər, qitələr, tərkibbəndlər, mxəmməslər, müsəddəs, müstəzadlar, satiralar, müxtəlif şeirlər daxil edilmişdir.



Qaz və durna : Uşaqlar üçün seçilmiş mənzum hekayələr / S. Ə. Şirvani ; red. M. H. Seyidzadə ; rəs. Ə. Səttar. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1945. - 20 s. : il. ; 19 sm.

Kitabda verilmiş mənzum hekayələrdə müxtəlif heyvanların dilindən maraqlı əhvalatlar verilir.




Seçilmiş əsərləri : 3 cilddə / S. Ə. Şirvani ; tərt.ed. S. Rüstəmov ; red.: Q. M. Namazov, S İbrahimov ; bur.məsul U. Rəhimoğlu. 1-ci cild / ön söz X. Məmmədov. - Təkrar nəşr, 1967-ci il nəşri əsasında. - Bakı : Avrasiya Press, 2005. - 399 s. ; 22 sm. - (Klassik Azərbaycan Ədəbiyyatı).

S.Ə.Şirvaninin üççildliyinin birinci cildinə şairin qəzəlləri, rübailəri, qoşabeytləri, təkbeytləri, qitələri, tərkibəndləri, müxəmməsləri, müsəddəsləri və müstəzadları daxil edilmişdir.

Seçilmiş əsərləri : 3 clddə / S. Ə. Şirvani ; tərt.ed. S. Rüstəmov ; red.: Q. M. Namazov, S. İbrahimov ; bur.məsul U. Rəhimoğlu. 2-ci cild. - Təkrar nəşr, 1969-cu il nəşrinə əsasında. - Bakı : Avrasiya Press, 2005. - 384 s. ; 21 sm. - (Klassik Azərbaycan Ədəbiyyatı).




Şairin üççildliyinin ikinci cildinə satirik şeirləri, mənzum hekayələri və məktubları daxil edilmişdir.



Seçilmiş əsərləri : 3 cilddə / S. Ə. Şirvani ; tərt.ed. S. Rüstəmov ; red.: Q. M. Namazov, S. İbrahimov ; bur.məsul U. Rəhimoğlu. 3-cü cild / S. Ə. Şirvani. - Təkrar nəşr, 1969-cu il nəşri əsasında. - Bakı : Avrasiya Press, 2005. - 286 s. ; 22 sm. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Bu kitab milli mövzular əsasında yazılmış son dərəcə yüksək tərbiyəvi əhəmiyyətə malik dərs vəsaitidir.

Uşaqların baharı / S. Ə. Şirvani ; red. Ş. K. Sadiq ; lay.rəhb. M. F. Fərziyev. - Bakı : Hədəf Nəşrləri, 2012. - 96 s. : rəngli foto, il. ; 21 sm.



"İNCİ" uşaq ədəbiyyatı silsiləsinə daxil olan bu nağıl kitabı S.Ə.Şirvaninin "Rəbiül-ətfal" dərsliyi əsasında hazırlanmışdır. Kitabı nəsrə Vidadi Allahverdi çevirmişdir. Öndə M.Ə.Sabir haqda məlumat verilmişdir.




Hekayələr və təmsillər / S. Ə. Şirvanı ; burax. məsul Ə. Aslanoğlu ; red. Ə. Aslanoğlu ; tex. red.: N. Fazil, Z. Həmzəyeva ; dizayn M. Əziz ; rəs. F. Manafov ; Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu, Məktəbli Kitabxanası-2. - 2-ci nəşr. - Bakı : Mimta Yayınları, 2023. - 176 s. ; 19 sm.

Bu kitabda klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Seyid Əzim Şirvaninin tərbiyəvi-əxlaqi, satirik hekayə və təmsilləri toplanmışdır. Bu hekayə və təmsillərin hər birində oxucular üçün ibrətamiz örnəklər vardır.

## Əsərləri kitablarda




Eşşək və arılar ; Aslan və qarışqa əhvalatı ; Qaz və durna və b. // Təmsillər / Q.Zakir. - Bakı : Aspoliqraf, 2009. – S. 22-31. : rəngli şək. - (Məktəb kitabxanası).

Bu kitaba XIX əsrin görkəmli şairlərindən olan Qasım bəy Zakirin, Abbasqulu ağa Bakıxanovun və Seyid Əzim Şirvaninin ibrətamiz təmsilləri daxil edilmişdir.

Qaz və durna ; Məktublardan sətirlər : Məktəbli ilə müəllim əhvalatı və b. əsərlər // Uşaq ədəbiyyatı / R.Yusifoğlu. – Bakı : Təhsil, 2002. – S.39-43.

Kitab müəllifin mühazirələri əsasında hazırlanmışdır.Topluya istər Azərbaycan, istərsə də dünya uşaq ədəbiyyatının görkəmli nümayəndələri haqqında yığcam məqalələr, habelə müəlliflərin əsərlərindən nümunələr daxil edilmişdir.






Qəzəllər ; Müxəmməslər ; Müsəddəs ; Növhələr ; Rübailər // XIX əsr Azərbaycan şeiri antologiyası : Şərq-Qərb, 2005. - S. 261-271.

Təqdim olunan bu kitabda həmin dövrdə yaşayıb-yaratmış 60-dan artıq şairin əsərlərindən seçmələr toplanmışdır. Nümunələr tarixi-xronoloji prinsip əsasında düzülmüşdür.




Mircəfərə xitab ; Öyüd ; Müctəhidin təhsildən qayıtması və b. əsərləri // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 clilddə. C. 1. – Bakı : Öndər, 2005.– S. 201-240.

Məktəb yaşlılar üçün nəzərdə tutulan "Azərbaycan uşaq ədəbiyyatı antologiyası"nın bu cildində XX əsrə qədərki Azərbaycan poeziyasından seçmələr daxil edilmişdir.

Müctəhidin təhsildən qayıtması ; Cahil ata ilə alim oğulun hekayəsi // Azərbaycan uşaq ədəbiyyatı antologiyası: 3 cilddə. C. 1: Folklor və klassik uşaq poeziyası / Ş. Məmmədova ; toplayan, tərt.ed. Ş. N. Məmmədova, red. Z. Xəlil, rəy. F. F. Əsgərli, rəy. C. Məhərrəmova, rəy. H. Abdiyeva. - Bakı : [s. n.], 2018. - S. 173-182. - (Uşaq ədəbiyyatı).

## Haqqında kitablarda




Seyid Əzim Şirvani (1835-1888) // Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri : Elmi-kütləvi oçerklər / B. Ə. Nəbiyev ; red. A. Rüstəmli ; Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu. - Bakı : Ozan, 2012. - S. 86-131. ; 20 sm.

Kitabda akademik Bəkir Nəbiyevin qədim və zəngin Şirvan ədəbi mühitinin yetirdiyi böyük Azərbaycan şairləri - Ə.Xaqani, İ.Nəsimi, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət və M.Hadiyə həsr etdiyi elmi-kütləvi oçerklər yer almışdır.

Seyid Əzim Şirvani (1835-1888) // Azərbaycan uşaq ədəbiyyatı / X. Mustafayeva ; red. N. Şəmsizadə ; rəy. : N. Q. Cəfərov, Ə. Ağayev. - Bakı : Elm, 2011. - S. 88-90. ; 21 sm.




Kitabda uşaq ədəbiyytının poetik və estetik özüməxsusluğu, XX əsrin əvvəllərindəki təkamül xüsusiyyətləri, 20-30-cu illər tədqiqində uşaq ədəbiyyatının dərki, 40-50-ci illərdə uşaq ədəbiyyata totalitar idealogiyanın təzyiqi kimi ciddi nəzəri problemlər araşdırılır.




**Səfa, A.** Seyid Əzim Şirvaninin nəvəsi Səadət xanımın ağlı-qaralı günləri / A. Səfa ; red. A. İsabəyli. - Bakı : Şirvannəşr, 2009. - 140 s. : foto ; 20 sm.

Kitabda Seyid Əzim Şirvaninin nəvəsi Səadət xanımın ağlı-qaralı günlərindən və yaşadığı iztirablardan bəhs olunur.

## Haqqında dövri mətbuatda

**Abbaslı, T.** Canlı universitet əzmli... : Seysmik və poetik zəlzələlər məkanı Şamaxımızın XIX əsr nəhəngi Seyid Əzim Şirvani / Tahir Abbaslı // Mədəniyyət. - 2018. - 13 iyul. - S. 11.

Aləmdə səsim var mənim // Kommunist. – 1985. – 12 iyul. – S. 2.

**Bayramova, Y.** 190 il öncə Şamaxıdan doğan Günəş! / Yeganə Bayramova // Yeni Azərbaycan. - 2025. - 9 iyul. - № 116. - S. 8.

**Bəxtiyar.** Seyid Əzim Şirvaninin qəbirüstü abidəsinin açılışı olub / Bəxtiyar // 525-ci qəzet. - 2011. - 24 may. - S. 7.

**Cahangirova, İ.** “Guş qıl...” müxəmməsinin tədrisi / İradə Cahangirova // Azərbaycan müəllimi. – 1997. – 20 may.

**Dostəli, Ə.** Seyid əzimin poetik əzmi / Ə. Dostəli // Xalq qəzeti. - 2025. - 9 iyul. - № 138. - S. 10.

**Dostəli, Ə.** Seyyida, ölmərəm, aləmdə səsim var mənim : Seyid Əzim Şirvani – 190 / Ə. Dostəli // Xalq qəzeti. - 2025.- 5 aprel. - № 65. - S. 10.

**Əhmədalılar, T.** Seyyida! / Tahir Əhmədalılar // Mədəniyyət. – 2012. – 13 iyul. – S. 12.

**Ələddinqızı, N.** Füzuli ədəbi məktəbinin layiqli davamçısı / Nəzakət Ələddinqızı // Səs. - 2025. - 5 aprel. - № 55. - S. 13.

**Əliyeva, F.** Söz və elm uğurunda maarifçilik ideyalarının carçısı / Fidan Əliyeva // Respublika. - 2025. - 9 iyul. - № 138. - S. 11.

**Fərəcov, S.** Aləmdə əbədi səsi qalan şair və maarifçi / Savalan Fərəcov // Mədəniyyət : qəzet. - 2024. - 5 iyul. - № 50. - S. 6.

**Hümmətova, X.** Seyid Əzim Şirvani yaradıcılığının orta məktəblərdə öyrənilməsi / Xuraman Hümmətova // Azərbaycan. – 2010. – 30 aprel. - № 16.

Kokand Universitetində Seyid Əzim auditoriyası // Xalq qəzeti. – 2025. – 21 may. - № 104. – S. 14.

**Qəniyev, E.** Füzuli ənənələrini lirik qəzəllərində davam etdirən şair / Elşən Qəniyev // Azərbaycan : qəzet. - 2024. - 2 iyul. - № 135. - S. 12.

**Qəniyev, S.** Seyid Əzim Şirvaninin övladları / Seyfəddin Qəniyev // Mədəniyyət. – 2015. - № 7. – S. 62-63.

M.F.Axundov və S.Ə.Şirvani dini möcüzələrlə // Azərbaycan müəllimi. – 1967. – 5 fevral.

**Məmmədov, A.** "S" imzası S.Əziməmi məxsusdur ? : S.Ə.Şirvani – 155 / Alxan Məmmədov // Ədəbiyyat və incəsənət. – 1990. – 16 noyabr.

**Mirbağırov. K.** Seyid Əzim Şirvani və rus mədəniyyəti / Kamil Mirbağırov // Bakı. – 1965. – 8 iyun.

**Musayeva, İ.** Hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar... / İradə Musayeva // 525-ci qəzet. - 2023. - 18 yanvar. - № 9. - S. 10-11.

**Mustafa, N.** Həcv atəşini öz üzərinə çəkməkdən qorxmayan Seyid Əzim... Nizaməddin Mustafa // Ədəbiyyat qəzeti. - 2019. - 6 iyul. - S. 12.

**Mustafayev, M.** Böyük satirik / Mustafa Mustafayev // Ədəbiyyat və incəsənət. – 1985. – 12 iyul. – № 28. - S. 7.

**Mürvətqızı, S**. Adəmin aldanışı / Sevinc Mürvətqızı // 525-ci qəzet. - 2025. - 3 may. - № 76. - S. 12.

**Mürvətqızı, S.** Məşuqi-Əzəl hüzuruna Seyid Əzim yolu ilə / Sevinc Mürvətqızı // 525-ci qəzet. - 2025. - 15 mart. - № 49. - S. 23.

**Nəsrəddinov, N.** Seyid Əzimin maarifçi fəaliyyəti / Nazim Nəsrəddinov // 525-ci qəzet. - 2016. - 23 iyul. - S. 23.

**Nəsrəddinov, N.** Seyid Əzim Şirvani irsində mühüm tarixi ştrixlər / Nazim Nəsrəddinov // 525-ci qəzet. - 2016. - 29 yanvar. - S. 7.

**Rza, Z.** Böyük şair, görkəmli maarif xadimi : Seyid Əzim Şirvani / Zahid Rza // İki sahil. - 2025. - 9 aprel. - № 57. - S. 4.

Seyid Əzim Şirvani : Görkəmli şəxsiyyətlər // Savalan. – 2004. – 12-14 oktyabr. – S. 6.

Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (4 aprel 2025-ci il) // Respublika. - 2025. - 5 aprel. - № 65. - S. 3.

**Vahid, M.** Canan yoluna verməyə mən can yenə gəldim... / Mətanət Vahid // Ədəbiyyat qəzeti. – 2015. – 30 may. – S. 27.

**Vahid, M.** Mənim Seyid Əzimim : esse / Mətanət Vahid // Ədəbiyyat qəzeti. - 2017. - 8 iyul. - S. 9.

**Vahid, M.** Seyid Əzim və Füzuli : Ənənə və davamçılıq məsələlərinə ədəbiyyatşünaslığımızın münasibəti / Mətanət Vahid // Ədəbiyyat qəzeti. - 2020. - 11 iyul. - S. 24-25.

**Yaqubqızı, R.** Ədəbiyyatımızın böyük klassiki / Ramidə Yaqubqızı // Respublika. - 2023. - 8 iyul. - № 141. - S. 6.

**Yaqubqızı, R.** Maarifçi, tənqidçi, şair - Seyid Əzim Şirvani / Ramidə Yaqubqızı // Respublika. - 2024. - 9 iyul. - № 141. - S. 12.

**Yusifli, C.** Formanın müqəddəs sirri : Seyid Əzim Şirvani / Cavanşir Yusifli // Ədəbiyyat qəzeti.- 2018.- 29 dekabr.- S. 18-19.

**Yusifoğlu, R.** Maarifpərvər şair : S.Ə.Şirvani – 150 / Rafiq Yusifoğlu // Azərbaycan pioneri. – 1985. – 10 iyun.

**Zümrüd.** Füzuli ədəbi məktəbinin ən layiqli davamçısı : Bu gün Azərbaycan klassik musiqi sənəti tarixində müstəsna möveyə malik olan böyük şair Seyid Əzim Şirvaninin doğum günüdür / Zümrüd // Səs. - 2011. - 9 iyul. - S. 12.